# Muzeylər də Böyük qayıdışa hazırlaşır

**Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsinin Qubadlı Rayon Tarix-Diyarşünaslıq muzeyində "Müharibənin muzeylərimizə vurduğu ziyan. Şərqi Zəngəzur muzeylərinin milli vətənpərvərlik ruhunun formalaşması istiqamətində elmi tədris fəaliyyəti və doğma yurda qayıdışı" adlı seminar keçirilib.**

Tədbirdə çıxış edən Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xatın Ağayeva bildirib ki, Azərbaycan muzeyləri milli dəyərlərimizi, irsimizi və tariximizi qoruyaraq yeni nəsillərə çatdırır, ideoloji məkan olaraq azərbaycançılıq məfkurəsini təbliğ edir: "Bu gün xalqımızın tarixi keçmişinə marağın artdığı bir zamanda tarix-diyarşünaslıq muzeyləri milli vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Unutmayaq ki, keçmişin mühafizəsi və qorunması bizim gələcək nəsillərə verəcəyimiz ən böyük sərvətdir".

Şərqi Zəngəzur rayonlarının muzey direktorları, digər iştirakçılar muzeylərin yaranma tarixindən bəhs edərək qeyd ediblər ki, Heydər Əliyev Azərbaycana



rəhbərliyi dövründə mədəniyyət və incəsənətə xüsusi diqqət və qayğı göstərmiş, həmişə bu sahədə çalışanlara dayaq olmuş, mədəniyyət, o cümlədən muzey işçilərinin fəaliyyətini yüksək dəyərləndirmişdir. Məhz Ulu Öndərin rəhbərliyi dövründə respublikamızda muzey işində yeni mərhələnin əsası qoyulmuşdur.

Sonda iştirakçılar Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi Günel Quluzadənin " Qayıdış" adlı ekspozisiyası ilə tanış olmuşlar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 22 may, № 106.- S.10.